Olimpiya dünyası



# Azərbaycanda idmanın inkişaf tarixi

## IX yazı

*İdman sağlamlıq və gözəllikdir. Bəlkə, buna görə, "Sağlam bədəndə sağlam ruh olar" deyimi heç də təsadüfi deyil. Bədən tərbiyəsi və idman ümumi tərbiyənin bir hissəsi, cəmiyyətin ümumi mədəniyyətinin tərkib hissəsi, insanların sağlamlığını möhkəmlətməyə, fiziki bacarığını inkişaf etdirməyə yönəldilmiş ictimai fəaliyyət sahəsidir. İdman təkcə idmançılar arasında deyil, həm də xalqlar arasında dostluq münasibətlərinin yaranması və möhkəmlənməsində də mühüm rol oynayır. Sovetlər dönəmində Azərbaycanın müttəfiq respublikalar ilə idman əlaqələri xeyli genişlənmiş, idmanın bütün sahələrində ustalığın nümayişi və təcrübənin bölüşdürülməsi üçün əlverişli imkanlar, doğma, qardaşlıq münasibətləri olmuşdur.*

*(əvvəli qəzetimizin 2-ci sayında)*

1974-cü ilin oktyabrında Bakı şəhərindəki "Spartak" stadionunun yaşıl meydançasında "Vaqifin kamanı" mükafatı uğrunda oxatanların ənənəvi şəhərlərarası yarışları keçirilmişdi. Yarışda Bakının iki komandasından başqa Daşkənd, Minsk, Düşənbə, Yerevan və Ulan-Ude nümayəndələri mübarizə aparmışdılar. 67 iştirakçıdan 12-si usta, 20-si isə ustalığa namizəd var idi. Kişilərin mübarizəsində ilk üç yeri Bakı idmançıları tutmuşdular. Qadınların mübarizəsində də bakılı idmançılar uğurla təmsil olunmuşdular.

Yekun nəticələrə görə Bakı-1, Bakı-2 və "Spartak" komandası ilk üç yerdə qərarlaşmışdılar.

Həmin vaxt Özbəkistanın paytaxtı Daşkənddə keçirilən tennis üzrə SSRİ-nin şəxsi birinciliyində idmançılarımız fərdi yarışlarda ilkin mərhələdən azad idilər. Belə ki, həmin dövrdə yeni qaydalara əsasən güclülər dəstəsinə daxil olan tennisçilər mübarizəyə ikinci mərhələdən başlamalı idilər.

Qoşa yarışlarda tennisçilərimiz fəallıq nümayiş etdirirdilər. İdmançılarımız Lixaçov-Əhmədov özbəkistanlı Kolosniçenko-Polyakova cütlüyünə asanlıqla qalib gələrək (6:3, 6:4), Dibtsev (RSFSR)-Dragin (Belarus) səddini keçərək (6:3, 6:8, 6:0), 1/4 finala vəsiqə əldə etmişdilər. Həmin ilin noyabrında Aşqabadda "Zəhmət" Cəmiyyəti Mərkəzi Şurasının akademik avarçəkmə üzrə açıq birinciliyi keçirilmişdi. Avarçəkənlərimiz proqramın bütün növləri üzrə mübarizə aparmışdılar. Sükançısı B.Popova olan 8 nəfərlik və sükançısı N.Lukyanova olan 4 nəfərlik qayıqlarımız finişi birinci yerdə keçmişdilər.

Bakılı idmançılar sükançısız ikinəfərlik, qoşaavarlı (sükançı N.Kojevnikova) və dördavarlı (sükançı E.Həsənova) qayıqlarda ikinci yerə layiq görülmüşdü.



Qeyd edək ki, 8 nəfərlik və 4 nəfərlik qayıqlarda avarçəkən azərbaycanlı qızlarımız ilk dəfə ustalığa namizəd normasını yerinə yetirmişdilər.

1975-ci il martın 6-9-da Bakıda Böyük Vətən müharibəsində qələbənin 30 illiyi münasibətilə idman gimnastikası üzrə Azərbaycan və Türkmənistan yığma komandalarının yarışı keçirilmişdi. Azərbaycan Bədən Tərbiyəsi İnstitutunun (indiki Azərbaycan İdman Akademiyası) gimnastika salonunda təşkil olunan yarışda 38 idmançı (19 kişi və 19 qadın) öz baracığını nümayiş etdirmişdi. Kişilərin mübarizəsində xal hesabıyla hər üç yeri Azərbaycan idmançıları - Q.Solodov (103,25 xal), Q.Tropinin (102,65 xal) və V.Əliyev (100,7 xal) müvafiq olaraq, ilk üçlükdə yer almışdılar. Qadınların yarışında təmsilçilərimizdən N.Kolesova (70,7 xal), A.Moiseyeva (68,75 xal) ilk iki yerə layiq görülmüşdü. Türkmənistanlı R.Tadeyeva (68,4 xal) isə üçüncü yerlə kifayətlənmişdi.

Bakının ustalardan ibarət "Neftçi" komandasının voleybolçuları 1976-cı ilin mart ayının əvvəllərində Daşkənddə keçirilən Ümumittifaq yarışlarının birinci turunu uğurla başa vurmuşdular. "Neftçi" voleybol komandası Moskva "Dinamo"suna 3:0 (15:11, 15:12, 15:4) və Leninqradın "Burevestnik"inə 3:1 (15: 8, 15:7, 11:15, 15:12) qalib gəlmişdi. Bununla da komandamız martın 22-də keçiriləcək Odessa mərhələsinə vəsiqə əldə etmişdi.

1976-cı ilin aprelində Daşkənddə SSRİ Maarif Nazirliyinin UGİMləri (Uşaq-Gənclər İdman Məktəbi) arasında keçirilən idman gimnastikası üzrə yarışlara yekun vurulmuşdu. Turnirdə 11 müttəfiq respublikanın kollektivləri iştirak etmişdilər. Bakılı qızlar Leninqrad, Litva, Qırğızıstan və Tacikistan komandalarını geridə qoyaraq, mübarizəni yeddinci yerdə tamamlamışdılar. Oğlanlar isə beşinci yerlə kifayətlənmişdilər.

Şəxsi yarışlarda birinci dərəcəli gimnastlar arasında İ.Baklyukov 108,7 xalla ikinci, C.Şamayeva isə 18,2 xalla (dayaqla tullanma) üçüncü olmuşdu. N.Xanzadə ustalığa namizədlər arasında (halqalar) 3-4 yerləri bölüşdürmüşdü. S.Spitsın hərəkətləri icra etməklə dördüncü yerə layiq görülmüşdü.

Bu turnirdə azərbaycanlı idmançıların zəif cəhətləri də özünü göstərmişdi. Bəlli olmuşdu ki, qızlar tir üzərində, oğlanlar isə sərbəst və turnikdə hərəkətlərin yerinə yetirilməsində daha diqqətli olmalıdırlar.



1976-cı ilin iyununda Alma-Atada keçirilən otüstü hokkey üzrə beynəlxalq turnirdə Bakı "Burevestnik"i Əndicanın "Möhnət" komandasına qalib gəlmişdi - 3:1. Əvvəlki iki matçda Belçikanın "Yukkel" və yerli "Dinamo"çulara uduzan bakılılar yekunda üçüncü yeri tutmuşdular. Yarışın qalibi finalda ev sahiblərini məğlub edən "Yukkel" olmuşdu.

Sentyabrın 17-də Bakıda Həmkarlar İttifaqlarının idman sarayında Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun xatirəsinə həsr edilmiş cüdo üzrə ənənəvi Ümumittifaq turniri start götürmüşdü. Yarışlara ümumilikdə ölkənin 18 şəhərinin idmançıları qoşulmuşdular.

Turnirdə çəkisi 93 kq çəkidən yuxarı cüdoçuların mübarizəsində bakılı E.Hüseynov fərqlənmişdi. Orta çəkidə İ.Məmmədov ("Lokomotiv") mahaçqalalı Q.Əhmədovu, Ş.Səlimxanov (Sumqayıt) frunzeli Q.Kapitovu mübarizədən kənarlaşdırmışdı.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun tələbəsi R.Mahmudov Ust-Kamenoqorsk güləşçisi A.Serdibayevə qalib gələrək, çempion olmuş və idman ustası normasını yerinə yetirmişdi. Qeyd edək ki, Bakıdakı Həmkarlar İttifaqlarının idman sarayında keçirilən cüdo yarışı "Cəngi" sədası altında keçirilmişdi.

1977-ci ildə Azərbaycan idmançılarının Mərkəzi Asiya respublikalarının idmançıları ilə görüşləri, onların idmanın ayrı-ayrı sahələrindəki uğurlu yarışları dostluq əlaqələrinə də müsbət stimul vermişdi.

Həmin ilin iyun ayında 6 müttəfiq respublikanın gənc atletləri arasında Frunzedə keçirilən dostluq yarışı, bir növ, gənclərin ikinci Ümumittifaq oyunları ərəfəsində qüvvələrə baxış xarakteri daşıyırdı.

Ümumi hesabda Qırğızıstan komandası irəli çıxaraq qalib gəlmişdi. Azərbaycan idmançıları dördüncü yeri tutmuşdu. "Spartak" idman cəmiyyətinin yetirməsi V.Panfilov 100 metr məsafəni 10,7 saniyəyə qaçaraq, fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdı. Onun komanda yoldaşları Y.Arbuzov çəkicatma və T.Lixaryova isə diskatmada çempion olmuşdular. Bakı Xalq Maarif şöbəsi idman məktəbinin yetirməsi E.Sədullayeva manеələri dəf etməklə 100 metr məsafəyə qaçışda ikinci yeri tutmuşdu.



Çəkicatma üzrə mübarizədə V.Koldin mükafatçılar sırasında yer almışdı.

"Dinamo"çu A.İbrahimov, "Spartak"çı N.Karpuşkina, ordu idmançısı Y.Dövlətov, "Neftçi" cəmiyyətinin yetişmələri Nikolay-Marina Disnenkovlar və digərləri proqramın ayrı-ayrı növlərində üçüncü yeri tutmuşdular.

İyunda Alma-Atada Sovet İttifaqı Qəhrəmanı Sultan Bayməhəmmədovun xatirəsinə həsr edilmiş yunan-Roma güləşi üzrə beynəlxalq turnir keçirilmişdi. İttifaq güləşçiləri ilə yanaşı, yarışlarda Bolqarıstan, Macarıstan, Polşa, Rumıniya və İsveç idmançıları da iştirak etmişdilər.

SSRİ yığma komandasının tərkibinə daxil olan bakılı A.Niftullayev qələbə uğrunda mübarizədə böyük müvəffəqiyyət qazanmışdı. Ordu idmançısı bütün rəqiblərinə qalib gələrək, öz çəki dərəcəsində birinci yeri tutmuşdu.

1977-ci ilin iyul ayında Bakıda SSRİ Maarif Nazirliyinin uşaq-gənclər idman məktəbləri arasında tennis üzrə komanda birinciliyi uğrunda yarış keçirilmişdi. Azərbaycan və Özbəkistan idmançıların final görüşü qonaqların qələbəsi ilə başa çatmışdı - 4:5.

Otüstü hokkey üzrə ölkə çempionatının növbəti turunun oyunları 1977-ci ilin avqustunda Özbəkistanda keçirilmişdi. Bakı "Burevestnik"i Əndicanda "Möhnət" komandası ilə qarşılaşmışdı. İlk görüş 2:1 hesabı ilə bakılıların xeyrinə başa çatsa da, cavab qarşılaşmasında meydan sahibləri 2:0 hesabı ilə qalib gəlmişdilər. Həmin ay Düşənbədə yunan-Roma güləşi üzrə kənd idmançıları arasında SSRİ çempionatı keçirilmişdi. Güləşçilərimizdən Zahid İsmayılov (Qazax) və Hüseynxan Paşayev (Abşeron) öz çəki dərəcələrində gümüş medala layiq görülmüşdülər. Onlar həmçinin usta normasını yerinə yetirmişdilər. Beyləqan təmsilçisi Vitali Nikolayenko da usta kimi geriyə qayıtmışdı. Digər güləşçilərimizdən Vahid Mehdiyev, Cavanşir Mirzəyev və Fərhad Paşayev komandamıza vacib xallar qazandırmışdılar.

Düşənbə sentyabr ayında da kənd idmançılarının oxatma üzrə SSRİ çempionatına da ev sahibliyi etmişdi. Sevindirici haldır ki, Azərbaycan idmançıları ümumi hesabda ikinci yeri tutmuşdular. Şəxsi birincilikdə E.Çəkməzov 70 metr məsafəyə hədəfi nişan alaraq ölkə rekordunu təzələmiş, beynəlxalq dərəcəli usta normasını yerinə yetirməklə çempion adını qazanmışdı. Qızların yarışında idmançımız N.İlina gümüş medala yiyələnmişdi. Ş.Qənizadə ilk dəfə usta normasını yerinə yetirmişdi.

Qazaxıstan SSR Bədən Tərbiyəsi və İdman Komitəsinin mükafatı uğrunda 1977-ci ilin oktyabrında keçirilən ümumittifaq cüdo yarışları da idmançılarımız üçün uğurlu olmuşdu. Alma-Atada keçirilmiş bu yarışlarda "Məhsul" cəmiyyətinin yetirməsi İ.Qulamov 95 kq çəki dərəcəsində üçüncü yeri tutmuşdu. O, həmçinin usta normasının da öhdəsindən gəlmişdi.

Noyabr ayında Aşqabadda üç gün ərzində müttəfiq respublikaların uşaq-gənclər idman məktəblərinin velosipedçiləri arasında SSRİ çempionatı keçirilmişdir. Bu yarışlarda respublikamızın "Burevestnik" cəmiyyətinin yetirməsi S.Qəzənfərov 25 km məsafəyə fərdi yürüşdə ikinci yerə çıxmışdı. Komandamız 50 və 75 km məsafələrə qrup yürüşlərində də inamla mübarizə aparmışdı. Ümumi nəticə hesabı ilə velosipedçilərimiz altıncı yerə layiq görülmüşdülər.

Bakı Xalq Maarif Şöbəsinin ixtisaslaşdırılmış gimnastika məktəbinin təşəbbüsü və təşkilatçılığı ilə 1977-ci ilin noyabrında Bakıda "Dostluq" kubokı uğrunda gənc gimnastların yarışı keçirilmişdi. Bu yarışlarda Leninqrad, Aşqabad, Daşkənd, Corco və Pyatiqorsk gimnastları da qoşulmuşdular. Oğlanların turnirində bakılı Z.Mehdiyev daha uğurlu nəticə göstərmişdi. Bütövlükdə, ümumi hesabda Azərbaycan gimnastları birinci yeri tutmuşdular.

*(ardı var)*

***Əzizağa Ələkbərli,***
***Azərbaycan MEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent***